Bu tədbirlər çərçivəsində Hövsan Olimpiya İdman Kompleksində keçirilən güləş üzrə məktəblilərarası zona yarışı başa çatıb. Yarışda idmançılar sərbəst və yunan-roma güləş növü üzrə 10 çəki dərəcəsində mübarizə aparıblar. Qalib adı uğrunda mübarizəyə Bakı şəhərinin 13 rayonundan 130 idmançı qatılıb. Yarışın nəticələrinə əsasən, komanda hesabında 1-ci yeri Nərimanov, 2-ci yeri Nəsimi, 3-cü yeri Xəzər rayonunun komandaları tutub.

Daha bir zona yarışı İsmayıllı rayonunda atletika idman növü üzrə təşkil olunub. İsmayıllı Olimpiya İdman Kompleksində keçirilən yarışda Balakən, Zaqatala, Qax, Qəbələ, Oğuz, İsmayıllı, Şamaxı və Göyçay rayonlarının komandaları mübarizə aparıb. 1-ci yeri Oğuz, 2-ci yeri İsmayıllı, 3-cü yeri isə Qəbələ rayonunun komandaları tutub.

Oğuz rayonunda isə voleybol idman növü üzrə zona yarışı keçirilib. Olimpiya İdman Kompleksində təşkil olunan zona yarışında 1-ci yeri Balakən, 2-ci yeri Oğuz, 3-cü yeri isə Şəki rayonunun komandaları tutub.

Gəncə şəhərində taekvondo idman növü üzrə zona yarışları davam etdirilib. Gəncə Olimpiya İdman Kompleksində keçirilən zona yarışında 18 şəhər və rayonu təmsil edən 170-ə yaxın qız və oğlan taekvondoçu qüvvəsini sınayıb. Komanda hesabında 1-ci yeri Gəncə şəhərinin, 2-ci yeri Göygöl, 3-cü yeri Tovuz rayonunun komandaları tutub.

Qaliblər Təhsil Nazirliyinin diplom və medalları ilə mükafatlandırılıb.

Qeyd edək ki, bu yarışlar “Bakı 2015” I Avropa Oyunlarının proqramına daxil olan 14 idman növü üzrə (velosiped, voleybol, stolüstü tennis, taekvando, karate, güləş, çimərlik futbolu, cüdo, boks, basketbol, badminton, atletika, akrobatika və bədii gimnastika) keçirilir.